

> **Bu qafa ancaq bir türkdə ola bilər.**
>
> **Atatürk**

# ƏHMƏD BƏY AĞAOĞLU

**Azərbaycanın Əhməd bəy Ağaoğlu adında bir başucalığı və bir göynərtisi var. Başucalığı: böyük mütəfəkkir, böyük mübariz, böyük inqilabçı. İrticaya, millət düşmənlərinə qarşı amansız, dostluqda və millət sevgisində olduqca səmimi, sözü çəkinmədən üzə deyən, mərd, hətta canından artıq sevdiyi Atatürk ilə mübahisədə də bir addım geri çəkilməyən adam. Göynərtisi: bütün həyatını xalqının azadlığı uğrunda savaşa həsr etmiş bu adam Azərbaycandan "didərgin salındı". XX yüzilin əvvəllərində təkcə Azərbaycanda yox, Yaxın və Orta Şərqdə, Mərkəzi Rusiya və Qərbi Avropada tanınmış olsa da, Azərbaycanın bu görkəmli oğlu sonrakı nəsillər üçün itirildi. Azərbaycan 70 ildən sonra bu böyük oğlunu yenidən özünə "qaytara" bildi.**

O bütün türk dünyasının oğlu idi. Əhməd bəy Həsənbəy oğlu Ağayev (1909-cu ildən etibarən Ağaoğlu) 1868-ci ildə Şuşa şəhərində, bəy ailəsində anadan olmuşdur. Atası Mirzə Həsən bəy Qarabağın Qurdlar elindən idi. Babası Mirzə İbrahim Şuşanın ən məşhur alimlərindən olub, xəttat və şair kimi də tanınırdı. Əhməd bəyin anası Tazə xanım Sarıcaalı elindən Rəfi bəyin qızı idi. Yaşadığı mühitə, din xadimlərinə tənqidi münasibət bəsləyən anasından fərqli olaraq əmisi Hacı Mirzə Məhəmməd ərəb və fars dillərini, şəriəti yaxşı bilən, dindar bir müsəlman idi. Atası və dörd əmisi Türk-İslam mədəniyyətində yetişmiş, oxuyub yazan insanlardı. Ə. Ağaoğlu ənənəvi bir Şərq elmi mühitində tərbiyə almış, Şərq elmlərini, Şərq mədəniyyətini dərindən mənimsəmişdir. Onun təlim-tərbiyəsində ailə mühitinin böyük rolu olub.

Ə. Ağaoğlu əvvəlcə məhəllə məktəbində oxumuş, burada ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Sonra isə Şuşada yeganə müasir tipli maarif ocağı hesab edilən rus məktəbində təhsilini davam etdirmişdir. Ə. Ağaoğlunun özünün dediyinə görə bu məktəbdə ondan başqa daha dörd azərbaycanlı da oxuyurdu. O, bu məktəbdə oxuduğu zaman ermənilərin azərbaycanlılara qarşı patoloji nifrəti və düşmənçiliyi ilə qarşılaşmışdır. O, bu barədə belə yazırdı: "Bu beş nəfərin illər boyu davam edən təhsil həyatında erməni cocuqlarından çəkdikləri zülmü təsvir etmək imkan xaricindədir. Tənəffüslərdə biz, beş türk cocuğu cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilirdik. Yüzlərlə erməni cocuğu qəflətən üstümüzə hücum edirdi... Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzirdilər... Arkadaşlarımızın çoxu dözə bilmədi. Məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən yalnız mən tab gətirə bildim".

Ə. Ağaoğlu öz təhsilini Tiflisdəki 1 saylı gimnaziyada davam etdirdi. Rusiyada baş verən müxtəlif fikir və cərəyanlar, Tiflis mühitinə də öz təsirini göstərirdi. Tiflisdə bütün gizli cərəyan və təşkilatların şöbələri vardı və gürcü ziyalıları bu təşkilatların ön sıralarında idilər. Rusiya xalqlarının ağır, dözülməz vəziyyəti, istibdada qarşı mübarizə mövzularında dinlədiyi məruzələr ona güclü təsir göstərirdi.

Türklər və müsəlmanlar bu hərəkatlardan kənarda qalırdılar. Tiflis gimnaziyasında ancaq bir nəfər türk var idi ki, o da Ağaoğlu idi. O, gimnaziyanı müvəffəqiyyətlə başa vurur, əla cavablarına görə 300 manat mükafatlandırılması isə onun Peterburqa getmək arzusunu xeyli reallaşdırır.

1887-ci ildə Əhməd bəy Peterburqa gedir, Mərkəzi Mühəndis Texniki İnstitutuna daxil olmaq üçün imtahan verir. Lakin imtahan komissiya üzvlərinin qərəzli münasibəti nəticəsində özünə güvənən gənc məqsədinə nail olmur. Sonradan məlum olur ki, imtahan qəbul edən professor qatı bir yəhudi düşməni olub və Ağaoğlunu da yəhudi zənn etdiyi üçün onun cavabını düzgün qiymətləndirməmişdir.

Peterburq Əhməd bəyin həyatında silinməz izlər buraxır. Ona aydın olur ki, "Böyük Petronun (I Pyotr) Avropa üzərinə açdığı pəncərə" o zamana qədər tam şərqli həyatı keçirən Rusiyanı necə başdan-başa dəyişib, onu yeni bir hava ilə yaşamağa sövq edib. "Bu yeni həyatın verdiyi qüvvət və qüdrətlədir ki, Rusiya ta Şuşaya, ta Buxaraya, Xivəyə, Şərqi Türkistana qədər genişlənə" bilmiş və ucqarlardan bura gələn yüzlərcə gəncin, "ruslaşmış Avropa havasını" udmağa necə xidmət göstərmişdir.

Peterburqda Əhməd bəy hüquq fakültəsini yenicə bitirmiş Ə. Topçubaşov ilə tanış olur, Qafqaz şeyxülislamının nəvəsi Ə. Hüseynzadənin təhsilini bitirib İstanbula getməsindən xəbər tutur.

Əhməd bəy 1888-ci ildə ali təhsil almaq üçün Parisə gedir və hüquq məktəbinə daxil olub üç il sonra diplom alır. 1891-1892-ci illərdə Sarbonna Universitetinin tarix, Şərq dilləri və məzhəbləri şöbələrində oxuyur, dinlər tarixini öyrənir. Universitetdə məşhur şərqşünaslar Ernest Renan (1823-

ayrılıqdan sonra Ə. Ağaoğlu Nuru Paşanın müşaviri kimi Azərbaycana göndərilir.

Azərbaycana gələn Nuru Paşa anladı ki, solçulardan və musavatçılardan daha çox mühafizəkarlara və panislamistlərə rəğbət bəsləyir. Nuru Paşa Milli Şuraya da bir elə əhəmiyyət vermədi, çünki bu Şura öz mövcudluğuna görə rus inqilabına borclu idi. İyunun ortalarında Nura Paşa Xan Xoyski hökumətinə etimadsızlığını bildirəndə siyasi böhran baş verdi. Milli Şuranın nümayəndə heyəti onunla görüşmək istədikdə, paşa özünün ancaq əsgər olduğunu, siyasətdən baş çıxartmadığını, bu barədə siyasi müşaviri Əhməd bəy Ağaoğlu ilə danışmaq lazım gəldiyini söylədiyi üçün heyət onunla görüşmüşdür. Əhməd bəyin fikri isə belə aşkar olunmuşdur: xalq sizi istəmir. O, Milli Şuranın buraxılmasını və Nuru Paşa tərəfindən yeni hökumət təyin olunmasını məsləhət gördü, lakin axırda o, Milli Şuranın bundan sonra idarəetmə orqanı kimi öz fəaliyyətini dayandırması şərti ilə yeni hökumət yaratmağa razılıq verdi.

1918-ci ildə Ə. Ağaoğlu Gəncədə olarkən cəmi iki nömrəsi işıq üzü görən "Türk sözü" qəzetini nəşr etdirir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin üzvü seçilir. Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunu qorumaq üçün Ənzəlidə yerləşən ingilis komandanlığının nümayəndələri ilə danışıqlar aparmağa gedən nümayəndə heyətinə başçılıq edir. Ənzəlidəki qərargahında Tomsonla görüşən Azərbaycan nümayəndələri (Usubbəyov, Rəfibəyov və Ağayev) ondan heç bir təsəlliverici söz eşitmədilər. Britaniya generalı Azərbaycan hökumətini tanımaqdan imtina etdi. 1918-ci il noyabrın 17-də Bakıya daxil olan Tomson Azərbaycan bayrağının çıxarılması əmrini verdi. Bunu görən dövlət üzvlərinin bəziləri və Əhməd bəy Ağaoğlu "vahid və bölünməz" qeyri-bolşevik Rusiyası nümayəndələrinin toplaşdığı Rus Milli Şurası ilə danışıqlara başladılar. Ə. Ağaoğlu siyasi çeviklik göstərərək belə bir fikir söylədi ki, Azərbaycan müstəqil birlik kimi mövcud olmağa qadir deyildir, o ya qardaş Türkiyəyə, ya da böyük rus millətinə arxalanmalıdır. Türkiyə böhran vəziyyətində olduğundan, Rusiya ilə barışmaqdan başqa çarə qalmırdı. Bunu söyləməklə Ə. Ağaoğlu general Tomsondan daha çox güzəştlər əldə etmək istəyirdi.

1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh konfransında iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibində Ə. Ağaoğlu da var idi. Bu konfransa gedən nümayəndə heyəti ABŞ və Avropa dövlətləri ilə danışıqlar aparıb Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmalı idi. 1919-cu il yanvarın 20-də Azərbaycan nümayəndə heyəti İstanbula gəlir.

Azərbaycana qarşı Avropa və Amerikada ermənilərin apardığı təbliğat kompaniyasının gedişində ya "Azərbaycan" adlı dövlətin mövcud olmadığı "əsaslandırılır", ya da Azərbaycan Antantaya qarşı vuruşmuş məğlub Türkiyənin ayağına yazılırdı və bütün vasitələrlə rəhbər xadimlərə Azərbaycan haqqında qərəzli məlumatlar verilirdi. İlkin addım kimi onlar Ə. Ağaoğlunun İttihad və Tərəqqi komitəsinin üzvləri ilə birlikdə həbs edilib ingilislərin nəzarəti altında olan Malta adasına sürgün edilməsinə nail oldular. Həbs olunanlar içərisində türk dünyasının ən məşhur mütəfəkkirləri Z. Göyalp da var idi. Azərbaycan nümayəndə heyəti İstanbulda olduğu dövrdə ehtiyac və çətinliklər içərisində yaşayan Ə. Ağaoğlunun ailəsinə 150 türk lirəsi həcmində maddi yardım göstərdi.

Əhməd bəy Malta sürgünündəki çətin şəraitə baxmayaraq yaradıcılıqla məşğul olurdu. "Üç mədəniyyət" adlı məşhur əsərini də burada yazdı.

Malta məhbuslarını xilas etmək üçün həm Azərbaycan hökuməti, həm də Ankara hökuməti ingilislərlə danışıqlar aparırdılar: Ə. Ağaoğlunun dünya görüşündə Malta sürgünü dövründə müəyyən dəyişikliklər əmələ gəlmiş və Azərbaycan hökumətinin başçısına 1921-ci il may ayının 21-də yazdığı məktubundan dəyişikliyi görmək mümkündür. Əhməd bəy əsirlikdən qurtarıb İstanbula gələn zaman N. Nərimanovdan məktub alır. Nərimanov Ağaoğlunu Azərbaycana dəvət edir və ona yüksək bir vəzifə verəcəyini vəd edir. Lakin Ağaoğlu İstanbulda Malta məhbuslarının azad olunmasında Ankaranın Böyük Millət Məclisi hökumətinin və şəxsən də Atatürkün xidmətini bildikdən sonra özünə mübarizə yeri olaraq Türkiyəni, tərəfdar kimi də Mustafa Kamal və onun silahdaşlarını seçir.

Ə. Ağaoğlu 1921-ci ildə Mətbuat İnformasiya idarəsinin baş müdiri vəzifəsinə təyin edilir. Anadolu Agentliyi də bu idarənin tabeliyinə verilir. Əhməd bəy bu dövrdə "Hakimiyyəti-milliyə" qəzetinin redaktoru vəzifəsini yerinə yetirərək yeni Milli hökumətin qurucusu Atatürkün ideyalarını təbliğ edirdi. Əhməd bəy öz həmfikri Z. Göyalpı Atatürklə şəxsən tanış edir. O, Qarsdan TBMM-nə 2 kərə deputat seçilir. Türkiyə Cümhuriyyətinin yaranmasını böyük sevinclə alqışlayan Ə. Ağaoğlu sonralar cəmiyyətin həyatında xoşagəlməz dəyişikliklər, Xalq Cümhuriyyət Partiyası başçılarının bəzi yanlış addımları barəsində 1926-cı ildə Atatürkə bir məruzə yazıb göndərir. Bundan sonra Atatürkün və İsmət İnönünün Ə. Ağaoğluya münasibəti dəyişir. Bu münasibət həm də onun övladlarına qarşı göstərilir.

1930-cu ildə Türkiyədə təkpartiyalılığın diktaturaya apardığını görən Atatürk Avropa və Amerika tipli bir dövlət quruluşu qurmaq üçün ölkədə yeganə hakim partiya olan Xalq Cümhuriyyəti Partiyası ilə rəqabətdə olan bir müxalif par-



tiyanı yaratmaq cəhdini göstərdi. Bu hadisə Türkiyə tarixində "Sərbəst firqə olayı" adını almışdır. Bu firqənin sədri Fəthi bəy (Okyar) olur. Ə. Ağaoğlu da Atatürkün təklifi ilə bu partiyaya daxil olur. Sərbəst firqə Ağaoğlunu sarsıntıya uğradır. Canından çox sevdiyi, böyük hörmət bəslədiyi bir adamla - Atatürklə aralarında narazılıq baş verir. Tezliklə Sərbəst firqə ilə Atatürk arasında yaranmış ixtilaf nəticəsində bu firqə bağlanır. Bu hadisədən sonra bir gün Atatürkə:

"- Paşam, Türkiyədə iki böyük talesizlik oldu, bunlardan biri Lətifə xanımdan, digəri isə əsgi yaraq yoldaşlarınızdan ayrılmanızdır." demişdir. Ə. Ağaoğlu Ankaradan İstanbula köçür. Onun İstanbula köçərkən qızlarına yazdığı məktublarında (Süreyya o zaman Strasburqda, Tezər isə Berlində idi) keçirdiyi hissləri belə qələmə almışdı: "Yenidən İstanbuldayıq. Bu mənim qurduğum dördüncü evdir. İndi düşünün, həyatın dalğaları məni nə qədər atıb-tutmuşdur. Heç olmasa, bu evimiz artıq qərar tutduğumuz yer olaydı. Türkün köçəriliyi əbədi taledir. Mən də bu Türkün doğurdan da canlı bir misalıyam".

Ə. Ağaoğlu İstanbulda Universitetdə dərs deməklə bərabər elmi və ədəbi - bədii yaradıcılıqla da məşğul olur. Ümumiyyətlə, Ə. Ağaoğlu 20-30-cu illərdə "Hindistan və İngiltərə", "Sərbəst insanlar ölkəsində", "Dövlət və fərd", "Türk-təşkilati-əsasiyyəsi", "Türk hüquq tarixi", "Mən nəyəm", "İran və inqilab", "Könülsüz olmaz", "İxtilalmı və İnqilabmı", "Sərbəst firqə xatirələri" kimi sanballı əsərlər yazmışdır. Onun sayəsində rus alimi Kuropatkinin "Etika" əsəri tərcümə edilərək nəşr olunmuşdur. Bundan başqa o, "Yakutlar" əsərini rus dilindən türkcəyə çevirmişdir. Qəzet və jurnallarda yüzlərcə məqalə çap etdirmişdir.

1933-cü ildə Ə. Ağaoğlunun yanına köhnə tanışlarından biri gələrək "Axın" adlı bir qəzetin çıxarılmasını ona təklif edir. Tezliklə bu təklif baş tutur. Ə. Ağaoğlu "Axın" qəzetinin baş redaktoru olur. Onun yazdığı baş yazılarda daha çox sosial məzmunlu tənqidlər yer alır. Bu səbəbdən bir qisim iqtidar sahibləri "Axın" qəzetini müxalifətin səsi olaraq görürdülər.

Qəzetin nəşrindən bir neçə ay keçdikdən sonra bir gün İstanbulda olan Atatürk, Ağaoğlu ilə görüşür və "Axın" qəzetindəki yazılardan narazı qaldığını bildirir. Ağaoğlu "Paşam, hər kəs bir cür düşünə bilər. Mən nə edim ki?" - deyir. Atatürk "Deməк baş aparırsan" - deyə Ağaoğluna qarşı çıxır.

Bir neçə həftədən sonra "Axın" qəzeti bağlanır və "Darülfünun İslahatı" (Universitetin yenidən qurulması) nəticəsində Ağaoğlunun kürsüsü də əlindən alınır və pensiyaya göndərilir.

1933-cü ildə Ə. Ağaoğlunun ömür-gün yoldaşı Sitarə xanım 52 yaşında vəfat edir. Bu ölüm Əhməd bəyi sarsıdır. Əhməd bəylə Sitarə xanımın yeddi övladı olmuşdur. Vəzir və Bəşir kiçik yaşlarında vəfat etmiş, qalan 5 nəfərdən - Süreyya, Tezər (Təzəxanım), Əbdürrəhman, Səməd və Gültəkin ali təhsil alaraq Türkiyənin ictimai-siyasi həyatında mühüm rol oynamışlar.

Süreyya 1903-cü ildə Qarabağda, Səməd bəy isə 1909-cu ildə Bakıda anadan olmuşlar. Süreyya xanım hüquq təhsili alan ilk türk qadınlarından biri olaraq, Türkiyədə ilk vəkil qadın idi. 1989-cu ildə İstanbulda dünyasını dəyişdi. Tezər Universitetin fəlsəfə fakültəsini bitirmişdi.

Səməd Ağaoğlu ixtisasca hüquqşünas idi. Buna baxmayaraq bir sıra bədii, siyasi-publisist, elmi əsərlərin müəllifidir. 1950-60-cı illərdə TBMM-in deputatı olur və Demokrat partiyası qalib gəldikdən sonra baş nazir Adnan Mendersin hökumətində baş nazirin müavini, əmək naziri, sənaye naziri kimi mühüm vəzifələrdə çalışır. 27 may 1960-cı il çevrilişindən sonra Menders və hökumətin digər üzvləri kimi S. Ağaoğlu da həbs edilərək ömürlük həbs cəzasına məhkum edilir. Lakin 1965-ci ildə əfvi-ümumiyə düşərək həbsdən azad edilir. 1967-ci ildə o, ata yurdu Azərbaycanda olur. S. Ağaoğlu 1981-ci ildə İstanbulda vəfat etmiş və orda dəfn edilmişdir.

Atatürk ilə Ağaoğlu münasibətlərinin belə gərginləşməsində Atatürkün ətrafında olan vəzifə sahiblərinin də xidməti az olmamışdır. Onlardan biri Baş nazir İsmət İnönü idi. 1934-cü ilin yayında Böyükada Yat Klubunda Atatürk Ağaoğluna - Əhməd bəy, İsmət paşa, "Əhməd bəyə dövlət xidmətində yer yoxdur" - deyə müraciət edir. Ağaoğlu "Mən kimsədən dövlət qulluğu istəməmişəm" - cavabını verir.

Aralarında olan umu-küsülərə baxmayaraq Atatürk ona böyük hörmət göstərmiş və könlünü almağa çalışmışdı. 1937-ci ilin yayında yenə Atatürk Böyükadada, kluba gəlir. Bu zaman Əhməd bəy qızı Süreyya xanımla klubda olarkən onu yanına çağırtdırır. Atatürk onu qucaqlayaraq "Həsrətin qəlbimdə, lakin kim bilir, sən haradasan" mahnısının sözlərini söylədikdən sonra, "Həsrətini çox çəkdim sənin" - deyərək, "Vaxtilə Süreyya sənin gözəl olduğunu söyləmişdi, haqlı imiş, bu qafa ancaq bir türkdə ola bilər" - sözlərini əlavə etmişdir.

Ağaoğlu Atatürkün vəfatından çox sarsılmışdı. Oğlu Səməd Ağaoğlu yazır: "Atatürkün ölümü, ən ümidsiz anlarından belə ağlına sığışdırmadığı ölüm onu ciddi düşündürürdü. Həmişə şirin və cazibəli bildiyi yaşamağı ömründə bəlkə ilk dəfə bu ölüm qarşısında əhəmiyyətsiz hesab etdi".

Böyük öndərin vəfatından sonra İsmət İnönü prezident seçilir. Atatürkün ən yaxınlarından olan Falih Rıfqı Atay "Dövri İsmət gəldi"-deyə yazılar çap etdirir. Ağaoğlu o dövrdə bir məqalə yazaraq: "Napaleon öldükdən sonra heç bir fransız ona qarşı yazı yazmağı ağlı-

*na gətirməmişdi" deyirdi.*

*Həyatın son illərində zaman-zaman gələn şiddətli ağrılar Ağaoğlunu xeyli zəiflədir. Bütün dostlarını ən lazımlı anda tərk edən ürək, bu dəfə də onu tərk etməyə hazırlaşır və ilk dəfə idi ki, zəiflik göstərirdi.*

*Əhməd Ağaoğlu 19 may 1939-cu ildə beş övladının və yaxın adamlarının göz yaşları arasında dünyasını dəyişdi.*

*Türk tədqiqatçısı Fəxrəddin Gülsevən yazır: "Əhməd Ağaoğlu demək olar ki, gerçək bir ziyalının alın yazısı olan həyat səhifələrinin hər cürünü yaşadı. Ac qaldı, susuz qaldı. Lakin fikirlərindən, inanc və ideallarından əsla geri çəkilmədi. Onun dik və məğrur başı heç bir qüvvət önündə əyilmədi. Yalnız ölümə məğlub oldu, ölüm qarşısında susdu...".*

*Əhməd bəy "əsir Azərbaycan"ın qurtuluş günü üçün yanıb yaxılırdı. "O gün" üçün heç bir şeyini əsirgəmədi. O, həyatda ikən "O gün" gərçəkləşməsə də "O günü" görür, onun bir vaxt gələcəyinə candan inanırdı. Və bu gün artıq "O gün" gəlib, Əhməd bəy Ağaoğlunun ruhu ilə qovuşub.*

**Bir millət, vətən həyatda var olduqca, Əhməd bəy Ağaoğlunun adı uca tutulacaq, Türk-İslam dünyası onu böyük ehtiramla, qədirbilənliklə yad edəcək, yaradıcılığı yeni-yeni incəliklərlə işıqlandırılacaq.**

**Xaləddin Sofiyev,**
***kulturologiya elmləri namizədi***